XALQ QƏZETİ 1 fevral 2019-cu il, cümə

# Dövlətimiz şəhid ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşır

❐ ***Prezidentin bir neçə gün əvvəl şəhid ailələri ilə bağlı imzaladığı fərmanı çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, bu, yeni başlayan ilin ən mühüm hadisəsidir. Ölkə başçısı humanist və ədalətli bir addım ataraq, daha 3 minə yaxın şəhid ailəsinin hüquqlarının bərpa olunması və 461 şəhid polisin vərəsələrinə birdəfəlik 11 min manat yardımın verilməsinə dair fərman imzaladı.***

Xatırladaq ki, şəhid ailələrinə verilmiş vəsaitin hesablanması zamanı bir çox vərəsələr bu prosesdən kənarda qalmışdı. Biz millət vəkilləri şəhid ailələri ilə dəfələrlə görüşmüşük və bu məsələni – şəhid ailələrinə müavinətlərin verilməsini tez-tez önə çəkmişik. Ölkə başçısının idarəçilik sisteminin üstün cəhətlərindən biri də cəmiyyətdə gedən diskussiyalara və müzakirələrə həssas yanaşması, Milli Məclisdə qaldırılan məsələlərə diqqət yetirməsidir. İmzalanan fərman vətənimizin ərazi bütövlüyü uğrunda vuruşaraq həlak olmuş insanlara yüksək məhəbbət və hörmətin göstəricisidir.



Prezident sözügedən məsələyə dair araşdırmalarla bağlı göstəriş verdikdən və araşdırmalar tez bir zamanda başa çatdıqdan sonra çox ədalətli bir addım atdı. Yeni fərman sözün əsl mənasında böyük əks-səda doğurdu. Dövlət başçısı çox yaxşı başa düşür ki, şəhid ailələri cəmiyyətin həssas kateqoriyasıdır və bu ailələr oğullarını, həyat yoldaşlarını Vətən uğrunda qurban veriblər. Ona görə də ölkə başçısı bu kateqoriyadan olan insanlara artıq dərəcədə həssas yanaşır. Prezident mütəmadi olaraq əlillər, şəhid ailələri ilə görüşlər keçirir. Ölkə başçısının humanist və ədalətli qərarları bir daha təsdiq etdi ki, o, hər bir azərbaycanlının prezidentidir.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri ilə görüşməsi, onların problemlərini dinləməsi hakimiyyətin xalqla birgə olduğunun göstəricisidir. Bu, həm də cəmiyyətə, dünyaya bir mesaj idi. Xalqımız, dövlətimiz torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəman oğul və qızlarımıza, onların ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşır. Sosial yönümlü layihələr, görülən işlər xalqın rifahının yüksəldilməsinin əsas hədəf kimi götürüldüyünün təsdiqidir. Son illər şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təmin olunması da bu qəbildəndir. İnamla deyə bilərik ki, şəhid ailələrinə, Qarabağ müharibəsi veteranlarına və əlillərinə bu gün, həqiqətən də, çox böyük diqqət göstərilir.

***Elmira AXUNDOVA,***
***Xalq yazıçısı, Milli Məclisin əmək və sosial siyasət komitəsinin üzvü***